

# "İpək Yolu" musiqi festivalında "Nəsimiyə ithaf"

2010-cu ildən Şəkidə ənənəvi olaraq keçirilən "İpək Yolu" Beynəlxalq Musiqi Festivalına bu il Nəsimi irsi də öz möhürünü vurdu. 29 iyun – 3 iyulda gerçəkləşən sayca 10-cu festival günlərində "Nəsimiyə ithaf" vokal-xoreoqrafik kompozisiyası nümayiş olundu, Şəki Musiqi Kollecində "Nəsimi mövzusunun Azərbaycan bəstəkarlarının əsərlərində təcəssümü"nə həsr edilmiş dəyirmi masa keçirildi.

İyunun 27-də isə festival ərəfəsində Bəstəkarlar İttifaqında "Nəsimiyə ithaf" layihəsinin ilk musiqi axşamı təşkil edildi.

İlk konserti Azərbaycan klassik musiqisinin şah əsərləri – Niyazinin "Rast" simfonik muğamının violin ilə fortepiano dueti üçün işlənməsi (beynəlxalq müsabiqə laureatları pianoçu Fəqan Həsənli, violin ifaçısı Süleyman Əyyubov) və Ü.Hacıbəylinin "Cəngi" miniatürü (F.Həsənli) ilə haşiyələnmişdi. Bu klassik körpü arasında gənc bəstəkarların Nəsimi qəzəllərinə olan musiqi ithafları məmnuniyyətlə dinlənildi.

Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Bəstəkarlıq fakültəsinin tələbəsi Vüqar Məmmədzadənin (bəstəkar Aydın Əzimovun sinfi) bariton və fortepiano üçün bəstələdiyi "Hardasan" vokal əsəri dahi şairin qəzəlinin ənənəvi "Şüştər"-"Çahargah" məqamlarına əsaslanan ehtiraslı lirik obrazda və həzin ifa ilə (beynəlxalq müsabiqə laureatları vokalçı Rza Xosrovzadə pianoçu Fuad Əlizadənin müşayiətilə) yadda qaldı.

Eyni formanı – yəni bariton-fortepiano duetini təqdim edən növbəti vokal ithaf Aysel Əzizovanın bəstəsi – "Dünya duracaq yer deyil..." əsəri oldu. Əsər vokalçı Rza Xosrovzadə və beynəlxalq müsabiqələr laureatı Firuzə Nəcəflinin ifalarında səsləndi.

Kəmalə Əlizadənin "Nəsimi-qəzəl" bəstəsini Əməkdar artist Fəridə Məmmədova (soprano), beynəlxalq müsabiqələr laureatları – Ümidə Abbasova (I violin), Süleyman Əyyubov (II violin), Humay Hacızadə (viola), Nicat Bağırov (kontrabas) və Əməkdar artist Əyyub Əliyevin ifasında simli kvintet, eləcə də əməkdar artistlərdən ibarət muğam üçlüyü – Sahib Paşazadə (tar), Toğrul Əsədullayev (kamança) və Soltan Əliyev (nağara) təqdim etdilər. Müəllifin özü ifaçıları fortepiano arxasında müşayiət etdi.

Sara Dilrubanın "Heyran olmuşam" əsəri də qismən ənənəvi-klassik qavranılan poetik Şərq vokal miniatürləri ovqatını daşıyırdı. Beynəlxalq müsabiqələr laureatları – Ruslan Persan (bariton), Nərmin İsgəndərova (piano), Seyid Talıbov (qaval) və Əyyub Əliyevin (violonçel) ifasında səslənən bu əsər də ənənəvi lirik əsərlər xəttini tamamladı.

Konsertin vizual effektli – dövrə mənsub geyim və milli tembrlər seçiminə əsaslanan və Nəsimi şeiriyyətinin ilhamlı obraz aləmini açan nömrəsi gənc bəstəkar İlahə İsrafilovanın – "Mədhi Əhəd" adlanan mürəkkəb heyət və musiqi inkişafına malik bəstəsi idi. Rza Xosrovzadə (tenor), Kamran Talıblı (fleyta), Şahin Məmmədov (klarnet), Mahmud Salah və Ağarəhim Salah (zərb alətləri), Fəqan Həsənli (piano), Ümidə Abbasova (violin), Əyyub Əliyev (violonçel) milli üslub ilə müasir bəstəkar texnikasında yazılmış kompozisiyanın məharətli ifasını təqdim etdilər.

Nəsimi poeziyasının daha bir maraqlı, Qərb çalarlı çözməsi – Tural Məmmədlinin "Məndə sığar iki cahan" əsəri müəllifin özü (fortepiano), Ülkər Əliyeva (soprano), Kamran Talıblı (fleyta), Toğrul Məmmədli (valtorna) və adıçəkilən simli kvintetin ifasında səsləndi.

Nəsimi qəzəllərinə yazılmış musiqilərlə bərabər Xalq rəssamı Arif Hüseynovun "Nəsimi dünyası" rəsm silsiləsi də tədbir iştirakçıların ruhən şairin söz və fikir dünyasına apardı.

Mədəniyyət: xüsusi buraxılış.- 2019.- iyul. S. 45.